# AVROPA İTTİFAQI NÜMAYƏNDƏLİYİNİN HEYƏTİNİN LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNUN LERİK VƏ YARDIMLI RAYONLARINDA LAYİHƏ ƏRAZİLƏRİNƏ SƏFƏRİ

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

## “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

MAY 2024 — 4-cü hissə



*Lerik rayonu DAİM-in direktoru Aİ-nin nümayəndələrini və digər qonaqları Lerikin Ləlehiran kəndində salamlayır*

Avropa İttifaqı Nümayəndəliyinin əməkdaşları 6-8 may 2024-cü il tarixlərində layihə sahələrini monitorinq etmək və benefisiarlarla görüşmək üçün bölgədə səfərdə olublar. Komanda üzvləri - Maliyyə şöbəsinin müdiri Luica Di Troia, maliyyə şöbəsinin əməkdaşı Nigar Həbibli və Proqram meneceri Ramilə Aslanova Lerik və Yardımlı rayonlarında intensiv alma nümayiş bağlarına və kartof nümayiş sahələrinə səfər ediblər. Onlar, həmçinin Almaniya və Türkiyəyə təşkil olunmuş təlim səfərlərinin iştirakçıları ilə də görüşüblər.

Səfər “Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstək” layihəsinin fəaliyyəti ilə bağlı məlumat əldə etmək üçün layihə komandasıyla keçirilən səmərəli görüşlə başlayıb. Layihənin Komanda Rəhbəri Tara Şarafudiin öz təqdimatında həll olunan inkişaf problemlərini, layihənin əlavə dəyərini və mövcud vəziyyətini qeyd edib. O, regionda altı meyvə və tərəvəz məhsulunun dəyər zənciri təhlilindən və layihə tərəfindən hazırlanmış Kompleks Regional İnkişaf İndeksindən əldə etdiyi nəticələri bölüşüb.



*Lerikdə kartof istehsalçıları qrupu ilə görüş*



*Cəlilabadda çiyələk istixanasına səfər*

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ



*Yardımlıda kartof istehsalçıları qrupu ilə görüş*

İlk olaraq Lerik rayonu, Lələhiran və Divağac kəndlərinə İntensiv Alma Nümayiş Bağlarını müşahidə etmək üçün səfər edilib. Bu bağlar rayonda istifadəyə verilən 2,5 hektar nümayiş bağlarının bir hissəsidir. Altı kənddə 7 fermerə ümumilikdə 2010 ədəd alma tingi verilib. Meyvəçilik Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlıqda məqsəd rayonda daha geniş yayılması üçün ən uyğun çeşidləri seçərkən ən yaxşı kommersiya alma sortlarını tanıtmaq, monitorinq etmək və qiymətləndirmək idi. Lerik Alma İstehsalçıları Qrupunun üzvləri, Lerik Dövlət Aqrar İnkişafı Mərkəzinin (DAİM) və Rayon İcra Hakimiyyətinin (RİH) nümayəndələri ilə aparılan müzakirələr fermerlərə transformativ təsir göstərən bu təşəbbüsün müsbət təsiri barədə dəyərli fikirlər təqdim edib. Daha sonra Kələxan kəndində Lerik Kartof İstehsalçıları Qrupu ilə görüş keçirilib. Gənc fermerlərdən ibarət qrup dağlıq ərazilərə uyğun 4 yerli və 4 beynəlxalq kartof sortunun sınaqdan keçirildiyi 1 hektar nümayiş sahəsinin bir hissəsi olmaqdan məmnunluq hissi duyduğunu bildirib. Təcrübəyə Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu nəzarət edir, institutun mütəxəssisləri sahələrdə monitorinq keçirir və sonda rayon üçün ən məhsuldar sortu seçəcəklər. Bundan əlavə, təlim səfərlərində iştirak edən DAİM, RİH əməkdaşlarına və fermerlərə sertifikatlar təqdim olunub.



*Təlim səfərinin iştirakçıları ilə çıxarılan nəticələrin müzakirəsi, Lənkəran*

Növbəti gün nümayəndə heyəti Cəlilabadda Fədək Çiyələk Qrupu ilə görüşüb və Azərbaycanda çiyələk istehsalının əsas mərkəzi olan regionda çiyələk istehsalçılarının qarşısında duran əsas məsələləri müzakirə edib. Türkiyəyə təlim səfərində iştirak edən qrup sədrinə sertifikat təqdim edilib və orada gördüyü yeni texnologiya haqqında ətraflı müzakirə aparılıb. Bunun ardınca Yardımlı rayonunda Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu ilə birgə 8 sort kartofun sınaqdan keçirilməsi üçün 1 hektar kartof nümayiş sahəsinin salındığı ərazilərə yerində baxış keçirilib. Komanda Yardımlı Kartof İstehsalçıları Qrupunun bütün 8 üzvü ilə görüşüb, Avaş və Deman kəndlərində nümayiş sahələrinə baxıb. Təlim səfərinin rayondan olan iştirakçılarına, eləcə də DAİM və RİH rəsmilərinə sertifikatlar təqdim edilib. Bu sahə səfərləri meyvə və tərəvəz dəyər zəncirlərində torpaq təhlilinin, aqrotexniki biliklər və kiçik istehsalçılar arasında əməkdaşlığın olmaması, toxum və tinglərin keyfiyyətsizliyi daxil olmaqla əsas problemlərin həlli üçün xüsusi müdaxilələrin vacibliyini vurğulayıb. Bu mənalı qarşılıqlı fəaliyyətlər vasitəsilə komanda Aİ-nin regionda dayanıqlı kənd təsərrüfatının inkişafına dəstək vermək, müsbət dəyişikliklər və səlahiyyətlərin artırılması ilə bağlı öhdəliyini bir daha təsdiqlədi.



*Təlim səfəri iştirakçılarının sertifikatlarla təltif olunması, Lənkəran*

Missiya qalan dörd rayondan (Cəlilabad, Astara, Masallı və Lənkəran) olan 35 nəfər təlim səfəri iştirakçısının iştirak etdiyi görüşlə yekunlaşıb. Kənd təsərrüfatının hazırkı vəziyyəti, fermerlərin qarşılaşdıqları problemlər, iştirakçıların səfərlərdən təəssüratları və əldə etdikləri biliklərin tətbiqi ilə bağlı canlı fikir və təcrübə mübadiləsi aparılıb. Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

Layihə davam etdikcə, Avropa İttifaqı Lənkəran-Astara İqtisadi Rayonunun inkişafına, xüsusilə meyvə və tərəvəz alt sektorunun rəqabət qabiliyyətinin artırılmasına dəstək verəcək. Bu dəstək iqtisadi artımın, diversifikasiyanın təşviqində və yerli icmaların səlahiyyətlərinin artırılmasında əhəmiyyətli irəliləyişlərə səbəb olur.

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*
*Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*